Yeni təfəkkür

18 noyabr 2022- ci il

# ƏLƏŞRƏF NİFTİYEV: Müdrikliyin və mənəviyyatın zirvəsində



***Mən bir filoloq olaraq dünya və Azərbaycan ədəbiyyatı ilə yanaşı, çağdaş ədəbiyyatı oxumağı özümə borc bilir və imkan daxilində mütaliə edirəm. Bölgəmizin yaradıcılıq nümunələrini də həvəslə oxuyuram. Bu mənada, ədəbiyyatımızda xüsusi hörmət bəslədiyim və əsərlərini sevə-sevə oxuyub ibrətamiz nümunələr götürdüyüm yazıçılardan biri də rayonumuzun tanınmış ziyalısı, ağsaqqalı, uzun müddət məsul vəzifələrdə, habelə Masallı rayon İcra Hakimiyyəti Başçısının Humanitar məsələlər üzrə müavini işləmiş, hazırda rayon Ağsaqqallar Şurasının sədri, 15 kitab müəllifi Ələşrəf Niftiyevdir.***

Ələşrəf Niftiyevin şərəfli ömür yolu biz gənclər üçün sözün əsl mənasında bir örnəkdir. O, şəxsiyyətinin ucalığı, mənəvi zənginliyi, yüksək insani keyfiyətləri ilə hər zaman cəmiyyətdə nümunə olmuş və bu yüksək dəyərlər Ələşrəf müəllimi cəmiyyətin hər bir təbəqəsində xüsusi hörmət sahibi etmişdir.

Dəyərli ağsaqqal yazıçımızın bir neçə belə tədbirə və kitablara sığmayan şərəfli ömür yolundan bildiyim məlumatlar əsasında saatlarla danışa bilərəm. Lakin bu gün ən əsas məqsəd dəyərli yazıçı Ələşrəf müəllimin yeni çapdan cıxmış «Dastanlara dönəydi hər kəsin ömür yolu» adlı əsəri və bundan əvvəlki əsərləri haqqında fikirlərimi sizlərlə bölüşməkdir.

Hörmətli yazıçı-publisist Ələşrəf müəllimin kütləvi informasiya vasitələrində məqalələrini mütəmadi olaraq oxumuşam. Onun zəngin yaradıcılığı ilə ilk tanışlığım «Ömür yolu - nur yolu» adlı əsəri ilə olmuşdur. Bu aqil insan həyatın hər üzünü görmüş, enişli-yoxuşlu ömür yolunda kimsə onun qaranlıq küçələrinə işıq salmamışdır. Ələşrəf müəllim öz bacarığı, yüksək intellekti, ədaləti və prinsipiallığı ilə ömrünü nura qərq etmiş, bütün qaraguruhçulara layiqli cavabı özünə xas olan tərzdə, vaxtında məharətlə vermişdir. Ələşrəf müəllimin hər bir əsərində oxucuya ağsaqqal tövsiyəsi, real həyatın gerçəkliyi, mənəvi dəyərlər hər bir kəsin başa düşəcəyi dildə aşılanır. Onun «Oğul, bu qurana and iç ki…» əsərində mərdlik, düzlük, «Kiçiklərə, böyüklərə və hər kəsə» əsərində müdrik ağsaqqal tövsiyələri, «Haqqın gücü» əsərində ədalətin vacib məvfum olduğunu, «Həyatımın həqiqətləri» kitabında biz gənclərə örnək ola biləcək şərəfli bir ömür yolu, «Hər kəs qədrini yaşar» əsərində həyatın reallıqları ilə barışmağı, nəfslə mübarizə, «Vur-tut bu dünyada bir ömrümüz var» adlı əsərində mənəvi zənginlik, gözütoxluq, «Yaxşılığa qoyulmayıb tərəzi» əsərində xeyirxahlıq, «Gərək sevəsən, sevilәsən, sevindirəsən» əsərində müqəddəs hiss olan məhəbbətin, ləyaqətin humanizm prinsipləri oxuculara ustalıqla çatdırılı və ağsaqqal hörmətini əziz tutuanlar üçün dəyərli nəsihətlərə çevirilir.

Babalar nəvələrini unutmadığı kimi, həm də sevimli baba olan öz kiçik yaşlı oxucu nəvələrinin qarşısında baba və yazıçı məsuliyyətini dərk edərək o, «Uşaqlar üçün hekayələr» əsərini yazıb çap etdirmişdir.

Dəyərli yazıçımızın hazırda çapdan yeni çıxmış əsərində müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şücaətli ordumuzun zəfər qalibiyyəti, bu zəfərdə payı olan Masallı övladlarının, şəhidlərinin, qazilərinin, əsgərlərinin vətən sevgisi müdrik ağsaqqal tərəfindən düzgün təhlil edilmişdir. Eyni zamanda belə vətənpərvər qəhrəman oğulları böyüdən, fəxr etdiyimiz Nurlan və İntiqam qardaşları kimi igidləri tərbiyə edib boya-başa çatdıran, onlara beşikdən başlamış vətən sevgisini ana laylasıyla ruhlarna köçürən Ziba anamız kimi qəhrəman anaların haqqında həqiqi reallıqlar bədii təsvir vasitələrindən məharətlə istifadə edilməklə geniş və zəngin şəkildə verilmişdir.

Dəyərli ziyalı, müdrik ağsaqqal, örnək olan yazıçı Ələşrəf müəllimə yeni yaradıcılıq uğurları, möhkəm can sağlığı, tükənməz və bol enerji arzu edirəm.

**Qeyrət Balaşzadə**